# Başqa zamanın yazıçısı...

*(İsa Muğannanın “Cəhənnəm” romanı haqqında)*



İradə Musayeva

*Dərk edirsinizmi, niyə belə olursunuz,*
*ey cəhənnəmi içərilərində olanlar?!*
*(İ.Muğanna)*

2013-cü ildə İsa Muğanna “Cəhənnəm” romanını yazdı... Gözlənilən idi... İsa Muğanna 1985-ci ildən bizimlə başqa dildə danışır. Daha onun oxucusu, o oxucu ki, “Teleqram”, “Yanar ürək”, “Kollu koxa”, “Tütək səsi” kimi əsərləri ilə tanıyırdı onu. İsa Muğanna 1985-ci ildə “İdeal” əsərini yazdı və hamını heyrət içində qoydu. Oxucularının çoxunu itirdi... Qalanlardan isə bir hissə tərəddüdlə qəbul etdi, onun yeni tərzini, üslubunu və ən əsası, həyat, ölüm, yaradılış fəlsəfəsini, nəzəriyyəsini. O biri hissə isə (sadiq və müəllifinə sonadək inamlı oxucu auditoriyası) bütün intellektual potensialı ilə həqiqətini çatdırmaq istəyən yazıçısının yanında oldu - onun mif, nağıl, əfsanə, kosmik telepatiya, paranormal bacarıq, altıncı hiss, beyin gücü ilə bizim yoxluq aləmi hesab etdiyimiz məkan və məqamlarla ünsiyyət və s. bu kimi qeyri-real görünən söhbətlərinə, bədii mətnlərinə şübhə ilə yanaşmadı, istehza etmədi...

“1985-ci ildə mən ilk dəfə səs eşitdim. Üzr istəyirəm, səs yox, Ün, Odər dilində Ün deyirlər. Hiss elədim ki, bufövqəladə bir şeydi. Beynimə elə bil hardansa Ün gəldi, “sağ ol!”. Özü də atamın ÜNü. Təsəvvür eləyirsən adam nə günə düşər? Sonra kinostudiyadakı otağımda bir neçə Ün gəldi. O vaxt mən SAF AĞ elmindən xəbərsiziydim, odur ki, sarsıldım. Sonra ruhları çağırdım. Ruh nədi? Bunu çox deyirəm mən, amma anlayan yoxdu: insanın son nəfəsində onun bədənindən işıq çıxır. O, beyinə yığılır, ordan çıxır - SAF AĞ işıqdı, heç kəs görmür. Ancaq mənim kimi bir növ bədbəxtlər görür. O işıq insan bədənindən ayrılandan sonra yerin atmosferindən çıxınca yavaş gedir, çünki çox zərifdi. Axırıncı qatı keçən kimi avtomat sürətiylə uçur. Uçur gedir Aya-AĞ planetinə. İndi gəl sübut elə ki, təbiət Yer planetinin eşiyindədi, Ayın içindədi. Ağ planetə uçan işıq irsiyyətə keçdiyinə görə, orda ətə, sümüyə, qana çevrilir. Həmin Adamı orda qəbul edirlər, tam örtülü şəkildə. Milyon kosmonavt yolla, biri də içəri keçə bilməz, qoymazlar yaxın getməyə...”

İsa Muğannanın son 30 ildə yazdıqlarında həmin səsin diktəsi vardı... “Cəhənnəm” romanı belə başlayır: “Cəhənnəm” deyilən, doğrudan da, varmı, ya yoxdur? Varsa, ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daimi əzaba salmağa hansı vicdansız yaradıcıya lazım olub?”

Allah bizi - İnsanı cənnət üçün yaratmışdı. Adəm və Həvva cənnətdən endilər... Cəhənnəm sonranın cəzası kimi çıxdı meydana. Cəhənnəm adlı əzabı özümüz qazandıq - əməllərimiz, şeytana uymuş nəfsimizlə. “Qurani-Kərim”də Allah buyurur: “Sənə gələn yaxşılıq Allahdandır, sənin başına gələn bəla isə sənin özündəndir. Biz səni insanlara elçi göndərdik. Şahid olaraq Allah kifayət edər. (“Ən-Nisa” surəsi 79-cu ayə)

İsa Muğanna yaradıcılığının ikinci mərhələsində məkansızlıq, zamansızlıq halında, dinlərin fövqündə yeni dinlilik, bəşər düşüncəsinin qəliblərini dağıdan fərqli fəlsəfi tezislər carçısı kimi dahilik məqamında idi. “Niyə oxumursunuz?”, “Niyə inanmırsınız?” - suallarıı ilə köçdü dünyadan. Onun dili, inancı, tarixi bilgisi o qədər fərqli idi ki, yadplanetli kimi görünürdü. Onun haqqında həmişə “zamanı qarışdırılmış insan” kimi düşünmüşəm. Yad, qərib insan... İkinci mərhələdə o daha əvvəlkitək bədii mətn ustası olmadı. Obrazlar, təsvirlər, xarakter və tiplər, sosial problemlər, konkret dövrlərin real hadisələri, müharibələr, sevgilər və s. bu kimi ənənəvi mətn komponentlərindən əsas məsələ kimi danışmağı primitiv yazı texnikası hesab etdi. Onu ideyalar, ideallar, təhrif olunmuş tarix, yanlış yozulan dini görüşlər, zamanı özü ilə sürüb apara bilən İşıq gəmiləri, Saf Ağ elmi, işığı, Ay-Ağ planeti maraqlandırırdı. İki od arasında qalmışdı, məkansız, zamansızlıq halında yaşayırdı. Qərib idi bu dünyada, nə bizi o ucalığa çəkib apara bilirdi, nə o ucalığı bizə qədər endirə...

Fəqət, zamanımızın bütün təbəddülat və faciələrini, ictimai-siyasi, sosial problemlərini həmin ilahi intuisiyanın işığı fonunda bədiiləşdirə bilirdi. “Cəhənnəm” romanında postmodern estetikaya xas pərakəndəlik və nizam antitezası var. Zaman, yaş, tarix qeyri-realdır, lakin hadisələr tanışdır, tarix və çox hallarda sənədlilik var. “Furak, qəribə bir sual verdi: - Üçüncü dünya müharibəsi neçənci ildə başlanıb, Bəy? İkinci dünya müharibəsi hələ qurtarmamışdı. Stalin Çörçili “Ərəb dünyasının yeni renessansı” ilə qorxudub İsrailə müstəqillik aldı. Bunu təsdiq eləyirsən? Bəy üzünü turşutdu: - Məni xatirələrə çəkmə!

Furak, inadla: - Lazımdı bu söhbət, bəyim! Lazımdı! - dedi.

- Mən sənə lap açıq, lap çılpaq danışmalıyam, bəzi həqiqətləri olduğu kimi deməliyəm. İsrail üç sverxdərjavadan (SSRİ-dən, Amerikadan, İngiltərədən) gizlin silah aldı və dərhal Fələstinlə müharibəyə başladı. Sən o vaxtdan Rusiyanın bilavasitə dərsi nəticəsində etnik xəstəliyə tutulmusan, təhlükəli saydığınız “Muğ”ları qırırsan, bəyim. Buna etirazın yoxdu ki?”

İsa Muğanna dünyanı idarə edən gücləri yer adamı kimi yox, daha yüksəkliklərdən seyr edirdi. Yer üzündə xoşbəxtlik üçün işıq-eşq bəxş edib Allah insana - deyirdi “Cəhənnəm” romanında... Üç məkan və zaman kontekstində İnsanı araşdırırdı, siyasətin, dünya siyasətinin astarını çevirib göstərirdi. Birinci zaman və məkan İsa Muğannanın öz dünyası - daima (son 30 ildə) səyahət etdiyi, ruhən gedib-gəldiyi dünya, Saf Ağ elmi ilə Ay-Ağ planeti dairəsində yerləşirdi, ikincisi müasir dünya - Türkiyə, İran, Rusiya, Amerika, İsrail və s. dövlətlərin dünya siyasi arenasında oynanılan taleyüklü oyunlarının simasını əks etdirirdi, üçüncü isə Azərbaycanın tarix səhnəsini göstərirdi.

İsa Muğanna müasir tarixin siyasi portretlərini - masonları, Amerika prezidentini və başqalarını dünyanın taleyini həll edən güclər kimi təsvir edir. “- Əgər bu doğrudan da ciddi söhbətdirsə, onda “gəmi” Buşun təyyarəsidi, Cənnət Amerikadı, mərhum arvadım Sərvinazla huriləri isə, şübhəsiz, məndən ayrılmış Qumralımla birlikdə Buşun agent stüardessalarıdı”.

Azərbaycan tarixinin həqiqətlərini irreal görünən söhbətin qayəsi kimi çatdırır və gələcək siyasi addımlar üçün bir mesaj verir həm də: “Sərvi dedi: Mazandaran İran deyil, bəy, Azərbaycanındı.

- Nə? Yeni Heydər qaytardı Azərbaycanı?! Nə vaxt oldu bu?! Paho! Biz Şimali Azərbaycanı da İrana qatmağa çalışırdıq axı! Tərsinə oldu?! Necə oldu, bütövləşdi Azərbaycan?! Sərvinaz izah etdi ki: - Sərhəd dəyişməyib, Mazandaran da, bütün qalan vilayətlər də hələ Farsın əlindədi. Əmma biz hurilər hər şeyi öz adı ilə deyirik, bəy. Ərdəbil, Zəncan, Qəzvin, Təbriz, hamısı elə köhnə Azərbaycandı - Bağdaydı bizim nəzərimizdə”.

“Cəhənnəm” romanında İsa Muğanna İnsanı Bünyad bəy obrazı vasitəsilə cəhənnəmdə oddan keçirib xilas etmək istəyir. Odda yana-yana təmizlənmə, etiraf, saflaşma, utanc hallarını içdən yaşama və ağrı... Öz əməllərini səhnədə, manitorda açıqca görmə sıxıntısı, gərginliyi, əzabı... Bünyad bəy İnsan adlı canlının günahlar toplusudur. Siyasi, sosial, ictimai, ailə-məişət fonunda ağıla gələ biləcək bütün günahların məcmusudur sanki... İsa Muğanna xilas etmək istədiyi İnsanı klassik şərq fəlsəfəsi və müasir qərb dünyasının modern düsturlarına çəkir, sonda sadə bir şüar asır o insanın gözləri qarşısından: İblisə uduzmuş insan xilas ola bilər. Nə ilə? Eşq və elm yolu ilə... Sufizmdə olduğu kimi - kamilləşmək, irfan sahibi olub Allaha yaxınlaşmaq. Romanda isə hadisələr sanki bir böyük atəş, od, tonqal-cəhənnəm dərsi dərəsində baş verir. Od yandıra-yandıra oyadır Allahın İnsana verdiyi əsil simanı, xisləti, hikməti, ilahi nişanələri... “Məhşər” romanındakı düşüncələrin daha maksimal variantı ilə tanış oluruq bu romanda. Burda da Bağ nəslindən, Muğannadan, “Avesta”da da adı çəkilən “muğ”lardan danışılır. “- Bu yaşın səbəbini öyrənmək üçün bircə yol var, Bəyim. Elm və eşq yolu. Elm və Eşq yolu isə Simurğ quşunun caynağındadı, - dedi”.

Odun, cəhənnəmin istisi, atəşi içərisində olsa da müəllif İnsanın qarşısında uzun və ümidli bir yol açır - İşıq gəmisi, Simurğ quşunun xilasedici caynaqlarındakı güc və yenə eşq, elm, hikmət, ilahi həqiqətə doğru uçuş mübarizliyi...

Furak Nizaminin qəhrəmanı kimi gəlib romana. Eşq və elm yolu ilə, işığa doğru yol axtarır, sanki. Şirin Xosrovu yenidən yaratdığı kimi o da bir missioner rolundadır. İ.Muğanna əsil postmodern mətn yaradıb. Müasir dünyanı klassik qəhrəmanlar izah edir... Sərvinaz, Türknaz, Qumral, Bünyad bəy, Klara, Ağ Məmmə, Bahar, Xəlvət Rəhim, Səməd Əmirli, Musa və başqa obrazların iştirak etdiyi hadisələr təkcə Qarayazı meşəsi, Muğanlı kəndi, Bağbanoğlu körpüsü, Niyazi sovxozu adlı məkanlarda deyil, həm də qeyri-real, şəffaf, ilğımlı kimi görünən, bəlkə də heç görünməyən, mifik, abstrakt bir məqamın boşluğunda cərəyan edir. Bir obrazda (Qumral) bir neçə şəxsin portretini cizgiləndirir. Bünyad bəy hədəf, mərkəz nöqtəsi kimi ittihamlara cavab vermək məcburiyyətindədir. Onu odcəhənnəm, Məhşər sualları danışdırır və susdurur.

İ.Muğanna “İdeal” əsərində olduğu kimi yeni dillə - özünün yaratdığı etimoloji lüğətdəki leksik vahidlərin hikməti, yozumu ilə Odər dilində SağAğ elmindən danışır bizə... “Odur ki, SafAğ Elmi haqqında sənin biliyin, əlbəttə, yarımçıqdı. Əgər dərsimizi mənimsəsən, qəlbən inanacaqsan ki, nəinki ayrılıq yoxdu. “İns”(an) - ÜnƏs - Yaradan Ünəs vahid kökdəndi, tezliklə belə olmalıdı o müharibələr xarabası Yerdə. Burda isə hamı, hamı OdƏrdi, yəni Həqiqət İşığı. Oddan - həqiqətdən kənarda Ər-İşıq yoxdu, Bəy. Varsa, nisbidi, orda insan özü də nisbi insandı, Şüuru, təfəkkürü, cismi, hissiyyatı - hər şeyi nisbidi. Yəni kamil deyil, itirib kamilliyini, heyvanabənzərdi”.

İsa Muğannanın ədəbiyyatında od, işıq, eşq, elm başlanan və bitən xətt üstündən keçmir, dövriyyədədir, dövr edir, dairə boyunca hərəkətdədir. Amma ilahi məqamdır hədəfi və həm də mənşəyi... İşıqdan, Nurdan-Allahın “Ol!”undan qopan insan işıqla enib yerə. Öləndə o işıq ayrılır bizdən - ona isə “ruh” deyirik yer halimizin dili ilə... “A kişi! Sənə necə yüz dəfə şərh olunub ki, öləndə insanın beynindən işıq çıxır. Yerdə “ruh” deyirlər o işığa. Əsli OdƏrcəsi ƏrAğdı. Yəni Saf Ağ İşıq. O “Ruh” - ƏrAğ sürətlə uçub bu “Axır”a - AğƏrə çatana qədər daxilinə elementlər dolur”.




Onun qəhrəmanları məkan məhdudiyyətindən uzaqdır, Aydan Yerə, Yerdən Aya İşıq gəmiləri ilə işıq sürətilə yol gedirlər. - “A kişi, Sərvinazam, mənəm axı! Bir bax: İşıq gəmisində Aydan Yerə gedirəm, Yerdən Aya gəlirəm”.

Romanda rus çarları, inqilabçıları, İ.Stalin, L.P.Beriya, M.C.Bağırov hakimiyyətlərinin şeytani diktəsi, M.K.Atatürk, Z.Tağıyev, N.Nərimanov, S.Orcenikidze, Ə.Şıxlınski, Ə.Qarayev, S.Mehmandarov və onlarla başqa ziddiyyətli xarakterləri və taleləri ilə günün sualına çevrilmiş tarixi, ictimai funksiyalı şəxsiyyətlərin də portretini görütük. İsa Muğanna hər əsərində diksindirici şərh və bəyannamələri ilə bizi təəccübləndirib.

İsa Muğannanın qəhrəmanı “beynini ovcunda tutan”, Yerə Səmadan baxa bilən insandır. Ayağının altında qarışqa qalanda kədərlənən, özünü günahkar bilən Bünyad bəy sonralar ən bağışlanmaz günahların “müəllifi” oldu. Bunun səbəbini isə Yaradanla və yaşadığı dünyanın qanunları ilə bağlamağa çalışdı. Müəllif isə sübut edirdi ki, hər şey özümüzdən, içimizdən başlayır və orada da bitir. İnsan dünyanın modelidir. Bir bütöv dünyadır. “Dərk edirsinizmi, niyə belə olursunuz, ey cəhənnəmi içərilərində olanlar?!” - deyə müraciəti də bu məzmunu ifadə edir.

“Cəhənnəm” romanında müəllif təxəyyülünün hüdudsuzluğu, sanki bütün zamanlara və məkanlara kosmik səyahət erudisiyası nümayiş olunur. “Cənnət və Muğanlı küllüyü” - postmodern əlaqələndirmə üsuluna bənzər saysız-hesabsız misallar çəkmək olar...

Əsərin adı “Cəhənnəm” olsa da söhbət daha çox cənnətə doğru gedən insanın təmizlənməsi məsələsindən gedir. İsa Muğannanın Cəhənnəmi paklaşdırır. Etiraf etdirir, təmizləyir və odda yuyunub sağlaşdırır. Kainat Bağları Yerin iradəsinə təzyiq göstərmirlər, Bu mətndə günahkar yalnız və yalnız bəndədir... İradəsi ilə özünə tale yaza biləcək, bəşəriyyəti belə xilas edə biləcək bəndə!